**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi**
**Təlim-Tədris Mərkəzi**

"Daşınmaz əmlaklara/torpaqlara dair texniki inventarizasiya-ölçmə işlərinin aparılması və sənədlərin hazırlanması" mövzusunda təkmilləşdirmə təliminin

**Tədris-mövzu Planı**

Proqramın məqsədi: Əmlak Məsələləri Dövlət Komitəsinin tabeliyində olan qurumların və ərazi (yerli) bölmələrinin işçilərinin Daşınmaz əmlaka/torpağa dair texniki sənədlərin hazırlanması və tərtibi işlərinə dair qaydaları, kameral, çöl-tədqiqat və ölçmə işlərinin planlaşdırılması, təşkili və həyata keçirilməsi sahəsində nəzəri və praktiki biliklərinin, bacarıqlarının və peşəkarlığının artırılması, qarşıya qoyulmuş vəzifə və tapşırıqların vaxtında, düzgün və tam həcmdə yerinə yetirilməsi, işlərin icrasında operativliyin və şəffaflığın təmin edilməsi, muasir avadanlıqların və texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi.

Dinləyicilərin tərkibi: Əmlak Məsələləri Dövlət Komitəsinin tabeliyində olan qurumların, ərazi bölmələrinin texniki inventarizasiya, çöl-ölçmə, kadastr və yerquruluşu işlərinə məsul olan orta rəhbər, mütəxəssis texniki heyəti.

Təlim kursunun miqdarı: 36 saat.

Təlim müddəti: 5 gün.

Təlimin forması: əyani, istehsalatdan ayrılmaqla.

Məşğələ saatları: həftədə 5 gün, saat 9.00-17.00.

Təlimçilər: Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin, Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin məsul işçiləri.

*Proqram: "Daşınmaz əmlaklara/torpaqlara dair texniki inventarizasiya-ölçmə işlərinin aparılması və sənədlərin hazırlanması".*

| **Sıra №-si** | **Mövzu və altmövzunun adı** | **Saatların miqdarı** | **o cümlədən** | |
|---|---|---|---|---|
| | | | **mühazirə saatları** | **Seminar və ya praktiki məşğələ saatları** |
| 1. | **Mövzu 1**<br>Daşınmaz əmlaka/torpağa dair inventarizasiya-ölçmə işlərinin və texniki sənədlərin hazırlanması işlərinin əsasları və mahiyyəti | 2 | 2 | - |
| 2. | **Mövzu 2**<br>Daşınmaz əmlaka/torpağa dair texniki sənədlərin hazırlanması və tərtibi işlərinə dair qaydalar və texniki tələblər | 2 | 2 | - |
| 3. | **Mövzu 3.**<br>Daşınmaz əmlaka/torpağa dair texniki inventarlaşdırma ilə əlaqədar ilkin hazırlıq, çöl-ölçmə və kameral işlərin aparılması, geodeziya cihazlarından və istinad stansiyalarından istifadə edilməsi məsələləri | 20 | 4 | 16 |
| 4. | **Mövzu 4.** | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | Daşınmaz əmlaka/torpağa dair texniki inventarlaşdırma işlərinin keyfiyyətinə nəzarət və işlərin qəbulu | | | |
| 5. | **<u>Mövzu 5.</u>** Texniki inventarlaşdırma və torpaq ölçmələrinin nəticələrinin rəsmiləşdirilməsi | 2 | 2 | - |
| 6. | **<u>Mövzu 6</u>**<br>Texniki inventarlaşdırma və torpaq ölçmələrinin nəticələrinə dair məlumatların daşınmaz əmlakın kadastrına daxil edilməsi | 2 | 2 | - |
| 7. | **<u>Mövzu 7</u>**<br>Daşınmaz əmlakın vahid dövlət kadastrı uçotuna və hüquqların qeydiyyatına dair ölçmə və inventarlaşdırma işləri nəticəsində texniki sənədlərin tərtibi və verilməsi | 4 | 2 | 2 |
| | **CƏMİ** | **36** | **16** | **20** |